2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 06 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 24 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilərdə 117 saylı Oğuz – Qəbələ seçki dairəsindən Böyük Söyüdlü bələdiyyəsi üzrə qeydə alınmış namizəd Kərimov Mürvət Mikayıl oğlunun səsvermə günü Böyük Söyüdlü, Çaldaşvə Qarabulaq kəndlərində seçkinin düzgün aparılmadığına, vətəndaşların hüquqlarının pozulduğuna və seçkilərin yenidən keçirilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 06 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə görə seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 117 saylı Oğuz – Qəbələ seçki dairəsindən Böyük Söyüdlü bələdiyyəsi üzrə qeydə alınmış namizəd Kərimov Mürvət Mikayıl oğlunun səsvermə günü Böyük Söyüdlü, Çaldaş, Qarabulaq kəndlərində seçkinin düzgün aparılmadığına, vətəndaşların hüquqlarının pozulduğuna və seçkilərin yenidən keçirilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 06 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 117 saylı Oğuz – Qəbələ seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov